# İlin neçə fəsli var?



Gülzar İbrahimova
"İlin neçə fəsli var?"

Dizayner: İsrayıl Məmmədov
Rəssam: Cəmilə Hacıyeva



16 səh, 1 ç/v, 70/100. Tiraj: 5000, Sifariş: № 838
"OSKAR" NPM-nin mətbəəsində çap olunmuşdur.
Bakı, Tbilisi pr., 3001
Tel.: (+994 12) 430 23 10, 430 23 20

# İlin neçə fəsli var?

Bir ildə neçə ay var,
Hansılardır, kim sayar?
Bəs neçə fəslimiz var?
Onlar nə cür adlanar?

Cürbəcür olur fəsillər
Onlar dünyanı gəzirlər,
Bir yerə isti səpirlər
Bir yerə qar gətirirlər.

Bir fəsildə yağış yağır,
Bir fəsildə güllər açır.
Bir fəsildə isti olur,
Bir fəsildə hər yan donur!







Mart, aprel, may aylarında
Dünya olar gözəl donda.
Təbiət yuxudan durar,
Quşlar bərkdən cəh-cəh vurar.

Hər bir tərəf yaşıllaşar,
Tamamilə başqalaşar
İsti ölkələrdən quşlar,
Uçub geri qayıdarlar!

Bahar bayramımız gələr,
Novruz xonçası bəzənər.
Səmənilər göyərdilər
Hamı şad olar, sevinər,
Hansı fəsildə, kim deyər?



İyun, iyul, avqust ayı,
Sevindirər uşaqları.
Günəş hər yanı isidər,
Uşaqlar dənizdə çimər!

Hətta məktəb də bağlanar,
Hamı gəzməyə yollanar,
Bağçada uşaq azalar.
Gözəl fəsil belə olar!
Bəs, bu fəsil nə adlanar?



Sentyabr, oktyabr, noyabrda,
Hər yan olar qızıl donda
Təbiət tamam dəyişər,
Bir başqa cür gözəlləşər!

Süfrələr meyvəylə dolar
Bağ-bağçalar sarı olar,
Tez-tez gur yağışlar yağar,
Dağı-dərəni isladar!

Bu fəsildə dərs başlanar
Uşaqlar dərsə yollanar
Hamı sevinər, şadlanar,
Bu fəsil necə adlanar?





Dekabr, yanvar, fevral
Soyuq fəsil sayılar.
Hər bir tərəf qar olar,
Şaxtadan sular donar!

Uşaqlar əlcək taxar
Qartopası oynayar!
Xizəklə sürüşərlər
Sevinərlər, gülərlər!



Şaxta baba qonaq gələr,
Çoxlu hədiyyə gətirər
Uşaqları sevindirər,
Fəslin adını kim deyər?











